# ABŞ niyə narahatdır

## Bu ölkənin Rusiya sülhməramlılarının Azərbaycanı tərk etməsi ilə bağlı mövqeyi göstərir ki, Vaşinqton regionda sabitliyin təmin edilməsindən məmnun deyil



**"ABŞ-nin sülhməramlıların Azərbaycan torpaqlarından çıxarılmasını şərh edərkən Rusiyanı "etibarsız müttəfiq" adlandırması tamamilə qərəzli yanaşmadan başqa bir şey deyil. Bir daha aydın olur ki, bu ölkə Azərbaycanla Ermənistan arasında gərginliyin qalmasında maraqlıdır. Əks halda, indiyədək Rusiyanı hər fürsətdə sıxışdıran ABŞ Qarabağdakı sülhməramlılarla bağlı fərqli mövqe ortaya qoyar, missiyanın çıxarılmasını alqışlayardı".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat söyləyib ki, Azərbaycan suveren dövlət olaraq bu günlərdə öz tarixi üçün əhəmiyyətli bir hadisəyə imza atıb: "Ölkəmizin ərazisində 2025-ci ilə qədər müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları Azərbaycan torpaqlarını tərk etdilər. Sülhməramlıların vaxtından əvvəl çıxarılması Prezident İlham Əliyevin möhkəm iradəsini və dövlətçilik təcrübəsinin böyük olmasını göstərir. Bir daha təsdiqlənir ki, dövlət başçımızın qətiyyəti milli maraqlarımızla bağlı bütün məsələləri yoluna qoyur".

Anar İsgəndərov söyləyib ki, sülhməramlıların Azərbaycan ərazisindən çıxarılması mütərəqqi və tarixi hadisədir, dövlət maraqlarımıza cavab verir: "ABŞ Dövlət Departamentinin bu hadisəni müsbət qarşılamaması isə onun riyakarlığının bariz nümunəsidir. Ümumiyyətlə, ABŞ və Fransa kimi bəzi dövlətlər Cənubi Qafqazda sülh və əmin-amanlığın bərpasının əleyhinədirlər. ABŞ Azərbaycandan çox uzaqda olmasına baxmayaraq, Cənubi Qafqazda gedən prosesləri öz xeyrinə həll etmək niyyətindədir. Hələ işğal dövründə də Azərbaycanla Ermənistan arasında münaqişənin başa çatdırılmasına yox, alovlanmasına xidmət edən bu dövlət Azərbaycanın tarixində xeyrimizə olan elə bir hadisə olmayıb ki, onu təqdir etsin. Elə Vətən müharibəsindən və 2023-cü ilin antiterror tədbirlərindən sonra Fransa və ABŞ-nin intensivləşən riyakar davranışları da bunu sübuta yetirir".

Deputatın sözlərinə görə, sülhməramlıların torpaqlarımızdan çıxarılması Azərbaycanla Rusiya arasında aparılan danışıqların nəticəsidir. Rusiya dövləti özü də başa düşürdü ki, Qarabağdan erməni separatçı qüvvələri təmizlənibsə və orada heç bir erməni yaşamırsa, Rusiya ordusunun burada qalmasına ehtiyac yoxdur. Ona görə də Rusiya öz məhdud kontingentini ərazilərimizdən çıxardı. Bu, gələcəkdə iki dövlət arasında münasibətləri gücləndirən faktordur. Münasibətlərdən hərbi komponentin çıxarılması Azərbaycanla Rusiyanın daha yaxşı əməkdaşlığı üçün yeni imkanlar açacaq.

"Baş verən tarixi hadisələr fonunda bir sıra dövlətlərin, eləcə də ABŞ və Fransanın qərəzli münasibətləri onların sülhün tərəfdarı olmadığını təsdiqləyir. Bu isə elə ən birinci növbədə himayələrinə aldıqları Ermənistana zərbədir. Beləliklə, İrəvan öz geosiyasi məqsədlərini güdən havadarlarının əsl niyyətini anlamalı və Azərbaycanla sülh sazişi imzalamağı gecikdirməməlidir", - deyə müsahibimiz əlavə edib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 20 aprel, №79.- S.8.